ədalət.2017.4 aprel.s.4



Əjdər Qiyaslı
iqtisadçı alim, şair

# ÜRƏKLƏRDƏSƏN

*Xalqımızın iftixarı, görkəmli hüquqşünas, müdrik, gözəl şəxsiyyət Şükür Rzayevin əziz və unudulmaz xatirəsinə.*

Dünyadan yaxşılar köçən bir anda,
Həyatın naxışı azalır onda.
Səndə naxışıydın bizim ellərin,
Kamalın dəryaydı, hikmətin dərin.
Şirin söhbətlərin könül açırdı,
Qəlbinin atəşi şəfəq saçırdı!
Ağsaqqal olmuşdun elin gözündə,
Tanrı nuru vardı sənin üzündə.
Müdrik kəlamların xeyir verirdi,
El-oba bağından bəhrə dərirdi.
Çox gözəl ürəyin var idi sənin,
Qeydinə qalardın dara düşənin!
Köməyə çatmağı şərəf bilərdin,
Küskün könüllərə şəfa dilərdin.
Özün çox görmüşdün asan, çətini;
Göstərdin həmişə səxavətini!
Qəlbində səxavət çeşməsi vardı,
Hamı öz payını ondan alardı.
Xeyirxah işinlə hörmət qazandın,
Əhdinə, eşqinə düz çıxdı andın.
İşində mətindin, sözündə qəti,
Qazandın tükənməz el məhəbbəti!
Vüqarlı dağ kimi ucaydı başın,
Baxıb sevinirdi qohum-qardaşın...
Dostlarsız keçməzdi bircə günün də,
Əsl yaraşığıydın toy-düyünün də!
Məsləkin saf idi, amalın ulu,
Qismətin olmuşdu haqqın düz yolu.
Qədirkeş olmuşdun elin yanında,
Şam kimi yanımlıq vardı canında...
Elə yanımlıq ki, hər an yanırdı,
Yaxşılıq nurilə alovlanırdı!
Yaxşılıq etmişdin bəsdi deyincə,
Bəhrəsi tükənməz min il yeyincə!
Çoxu haqqa çatıb sənin əlinlə,
İşıqlı zəkanla, saf əməlinlə.
Gözəl ailənin başında tacdın,
Qəlbini Solmaztək xanıma açdın.
O da uca tutdu sənin adını,
Qeyrətlə böyütdü hər övladını.
Rəşid, Rövşən uca zirvələr aşdı,
Ölkədə tanınmış hüquqşünasdı.
Onların məramı haqqa dayaqdı,
Məsləki, amalı həmişə haqdı!
Gülgün xanım oldu könül sirdaşın,
Gözəl bacısıydı iki qardaşın.
Sənin hər an anır... Həyəcanlıdır.
Çox ana yanımlı, atacanlıdır...
Düz yolun töhfədir hər övladına,
Övladlar layiqdir sənin adına!
Elə bil ada ki, nurludur üzü:
Həyata naxışdı pozulmaz izi.
Elə bir ada ki, işıq yandırır
Könüllə mülkünü ziyalandırır...
Həmişə düşürsən xalqın yadına,
Şan-şöhrət gətitrdin kök-soyadına!
Tanrıya o qədər yaxınsan ki sən,
Həmişə hər yerdə ürəklərdəsən...